BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2015*

**UOT 340.1**

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN HÜQUQ VƏ AZADLIQLARININ MÜDAFİƏSİNİN KONSTİTUSİYA TƏMİNATLARI

**N.H.XƏLİLOV**
***Bakı Dövlət Universiteti***
***nabixalilov57@gmail.com***

*Məqalədə qeyd olunur ki, müasir dövrdə Azəbaycan Respublikasında insan hüquq və azadlıqlarının real təmin olunması, ilk növbədə ölkə Konstitusiyasının əsas müddəalarına uyğun olaraq baş verir. Lakin demokratik konstitusiyanın mövcudluğu hər hansı ölkədə insan hüquqlarının təminatının həlledici amili deyil. Geniş mənada "insan hüquq və azadlıqlarının təminatı" anlayışı insan hüquq və azadlıqlarının səmərəli qorunmasını, onların tam həyata keçirilməməsi məqsədilə mümkün səbəb və maneələrin aradan qaldırılmasına yönəldilmiş obyektiv və subyektiv amilləri əhatə edir.*

*Məqalədə xüsusilə qeyd olunur ki, əgər siyasi, iqtisadi, sosial-əxlaqi təminatlar insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün zəmindirsə, hüquqi təminatlar şəxsin hüquq və azadlıqlarının birbaşa həyata keçirilməsinə və onların hüquq pozuntularından müdafiəsinə xidmət edir.*

**Açar sözlər:** konstitusiya, qanun, hüquqi, normativ, tənzimləmə, akt, qanunvericilik

Müasir dövrdə Azəbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəli təmin olunması, ilk növbədə ölkə Konstitusiyasının müddəaları əsasında baş verir, yəni bu fəaliyyət vətəndaş və Azərbaycan dövləti arasında müxtəlif xarakterli hüquq münasibətlərinin sabit və dəqiq tənzimlənmə sistemi-nin mövcudluğu şəraitində həyata keçirilir. 1995-ci ildə qəbul edilmiş Konsti-tusiya Azərbaycan dövlətinin ali məqsədi qismində insan hüquq və azadlıqla-rının təmin olunmasını (h.1, m. 12) bəyan etməklə yanaşı, Azərbaycan Respub-likası ərazisində insan və vətəndaş hüquq və azadlıqlarının birbaşa qüvvəyə malik olmasını da müəyyən etmişdir (h.VI, m. 71). Bu onu göstərir ki, Azər-baycan Respublikası nəinki insanın əsas hüquq və azadlıqlarını yüksək səviy-yədə tanıyır, eyni zamanda bunların təmin olunmasını dövlətin prioriteti kimi qəbul edir. İlk növbədə məhz bu amil onu həm demokratik, həm də hüquqi dövlət kimi xarakterizə etməyə əsas verir, çünki insanın hüquq və azadlıqlarının müdafiəsi hüquqi dövlətin mühüm sistemyaradıcı əlaməti kimi çıxış edir (1, 35).

Ancaq hər hansı ölkədə yalnız demokratik konstitusiyanın qəbulu heç bir halda orada insan hüquqlarına dair bütün hüquqi təminatların mövcudluğuna

dəlalət etmir. Bu zaman Konstitusiya müddəalarının cari qanunvericilik aktlarında inkişafı, beynəlxalq-hüquqi standartların tətbiqi, insan hüquqlarının təminatı üzrə mövcud institusional sistemin səmərəliliyinin artırılması da böyük əhəmiyyət kəsb edir. Hesab edirik ki, insan hüquq və azadlıqlarına dair hüquqi təminatların təkmil olması üçün ən əvvəl aşağıdakı tədbirlərin görülməsi zəruridir:

1) insan hüquqlarının təmin edilməsi sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin elan edilməsi;

2) insan hüquqlarının həyata keçirilməsi üzrə hüquqi forma və üsulların təyin edilməsi;

3) cari qanunvericilikdə hüquqi təminatlar sisteminin dəqiq müəyyənləşdirilməsi.

Əsas hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, insan daim bu hüquq və azadlıqlardan yararlanmalıdır. Bir çox əsas hüquq və azadlıqlarının xarakteri insanın bunları əldə etmək üçün hüquqi fəaliyyətini lazımsız edir, çünki bunlar doğulduğu andan hər bir şəxsə məxsusdur. Onların həyata keçməsi insanın müəyyən faktiki vəziyyətində ifadə olunur və həmin hüquqlardan dəyərlənmə hərəkət və ya hərəkətsizliklə birbaşa əlaqəli deyil (2, 49). Yalnız insanın zəruri müdafiəyə əl atmağa məcbur olduğu hallar istisna təşkil edir. Belə halda insan öz əsas hüquq və azadlıqlarını həyata keçirmək və müdafiə etmək üçün aktiv, hüquqi əhəmiyyətli hərəkətlər edir. Bütövlükdə isə insanın əsas hüquq və azadlıqlarının təminatı dövlət tərəfindən onun rifahının qorunması və müdafiəsinə yönəldilmiş fəaliyyət növüdür. Dövlət insanın əsas hüquq və azadlıqlarını həyata keçirmək üçün zəruri şəraiti yaratmaq vəzifəsini öz üzərinə götürür. Dövlət bu vəzifələri həyata keçirərkən insanın əsas hüquq və azadlıqlarına qarşı qəsdlərin sayını minimuma endirməyə cəhd edir, belə hallar baş verdikdə isə bunlara dərhal reaksiya verir. Başqa sözlə, insanın əsas hüquq və azadlıqlarının hüquqi təminatı bu hüquq və azadlıqların pozulmasının qarşısının alınması, təqsirkar şəxslərin cəzalandırılması, dəymiş ziyanın ödənilməsi ilə bağlı dövlət orqanlarının fəaliyyətində ifadə olunur.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da insan hüquqlarının həyata keçirilməsi azadlıq prinsipinin təsir gücünün müəyyən hüdudlara malik olması ilə əlaqədardır. Beləə ki, hər bir ölkədə əsas hüquq və azadlıqların qanun vasitəsilə məhdudlaşdırılmasına yol verilir. Bu zaman insan hüquq və azadlıqları məsələlərində məhdudiyyətlər müəyyən məqsədlər naminə (dövlətin konstitusiya quruluşunun əsasları, digər şəxslərin sağlamlığı, hüquq və qanuni maraqların, habelə dövlət təhlükəsizliyinin təmin edilməsi və s.) mümkündür. Belə ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun 3.4-cü maddəsinə əsasən, insan hüquq və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

A.S.Mordovetsin fikrincə, hüquqi məhdudiyyətlərin mahiyyəti bir tərəfdən, fərdlərin sosial faydalı davranışa görə həvəsləndirməkdən, digər tərəfdən isə onların sosial zərərli davranışının qarşısını almaqdan ibarətdir (3, 17). Beləliklə, dövlət tərəfindən insanın əsas hüquq və azadlıqlarının məhdudlaşdırılması hüquq qaydalarına riayət etmək, şəxsi təhlükəsizliyi təmin etmək, cəmiyyət və dövlətin təhlükəsizliyini təmin etmək, iqtisadi fəaliyyət və istənilən mülkiyyət forması üçün münbit şərait yaratmaq, həyat səviyyəsinin əsas göstəriciləri üzrə minimal dövlət standartlarını bərqərar etmək, vətəndaşların mədəni inkişafını təmin etmək kimi məsələlərin həll edilməsini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, bütün konstitusiya normaları insan hüquq və azadlıqlarının hüquqi təminatı kimi çıxış etmir. İnsan hüquq və azadlıqlarının hüquqi təminatı yalnız elə üsul və vasitələrdir ki, bunların vasitəsilə hüquqlardan maneəsiz istifadə etməyə, hüquq və azadlıqların müdafiəsinə və pozulduqları hallarda onların bərpasına nail olmaq mümkün olur. Konstitusiya normalarında müvafiq təminat sistemi ilə yanaşı, insan hüquqlarının milli müdafiə mexanizminin elementləri də təsbit edilir. Bu mexanizmin səmərəliliyi dövlət orqanlarının fəaliyyətinin vəziyyətindən və vətəndaşların hüquq mədəniyyətinin səviyyəsindən asılıdır.

M.V.Baqlay və B.N.Qabrişidze konstitusiya təminatlarını şərti olaraq iki qrupa (ümumi və xüsusi) ayırırlar. Bu müəlliflərin fikrincə, insan hüquq və azadlıqların ümumi təminatı qismində ümumi prinsiplərə və beynəlxalq hüquq normalarına əsaslanan konstitusiya quruluşu çıxış edir (4, 227). Həmin ümumi təminat hüquq və azadlıqları təmin etmək üçün vətəndaşların müəyyən hüquqlarını Konstitusiya vasitəsilə dövlətin vəzifələri sisteminə transformasiya edir. Bu əsaslar olmadan şəxsiyyətin cəmiyyətə qarşı irəli sürdüyü tələblər sırf formal xarakter daşımış olardı (5, 49).

Xüsusi konstitusiya təminatları qismində isə hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu, təqsirsizlik prezumpsiyasını, bir cinayətə görə təkrarən məhkum olmanın yolverilməzliyini, qanunu pozmaqla əldə edilmiş sübutların istifadəsinin qadağan edilməsini, hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququnu, fiziki şəxslərin məsuliyyətinin yaranmasını və ya ağırlaşdırılmasını nəzərdə tutan normativ hüquqi aktın qüvvəsinin geriyə şamil edilməməsini və s. qeyd etmək olar.

Bütövlükdə insan hüquq və azadlıqlarının konstitusiya təminatı qismində hüquq və azadlıqların konstitusiya məhkəməsi çərçivəsində müdafiəsi, hüquq və azadlıqların ümumi məhkəmələr tərəfindən müdafiəsi, insan tərəfdən öz hüquq və azadlıqlarını qanuni üsullarla müstəqil müdafiə etməsi, insan hüquq və azadlıqlarının inzibati-hüquqi müdafiəsi, insan hüquq və azadlıqlarının beynəlxalq-hüquqi müdafiəsi çıxış edir.

Azərbaycan Respublikası Konstitusiyasının üçüncü fəsli insan və vətəndaşın hüquq və azadlıqlarının müəyyən edilməsinə, onların sarsılmazlığı prin-

sipinin təsbit edilməsinə və bu hüquq və azadlıqların müdafiəsini təmin edən dövlət orqanlarının və vəzifəli şəxslərin funksional vəzifələrinə həsr edilmişdir. Öz məzmununa görə Əsas Qanun Azərbaycan dövləti qarşısında hamılıqla qəbul olunmuş beynəlxalq standartlara və prinsiplərə müvafiq olaraq insan hüquq və azadlıqlarının müdafiəsini təmin etmək kimi yüksək vəzifə qoyur. Güman edilir ki, Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi məsələsinin həlli məhz bu müddəadan irəli gəlir. Nəzəri cəhətdən bu, aşağıdakı növ fəaliyyəti ehtiva edir:

- hamılıqla tanınmış insan hüquq və azadlıqların Konstitusiyada təsbit edilməsi;
- insan hüquq və azadlıqların müdafiə mexanizminin, bu mexanizmin effektivliyini təmin edən vasitələrin cari qanunvericiliklə dəqiq təsbit edilməsi;
- insan hüquq və azadlıqların pozulmasına görə məcburi tədbirlərin tətbiq olunması qaydasının cari qanunvericilikdə təsbit edilməsi;
- insan hüquq və azadlıqların institusional təminat sisteminin konstitusiya və cari qanunvericilik səviyyəsində təsbit edilməsi.

Hal-hazırda Azərbaycan Respublikasında 10 dekabr 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Sosial və mədəni hüquqlar haqqında Beynəlxalq paktda, 19 dekabr 1966-cı il tarixli mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktda, Bütün növ irqi ayrı-seçkiliyin (diskriminasiya) ləğv edilməsi haqqında BMT-nin 20 noyabr 1963-cü il tarixli Bəyannaməsində, Təşkilat və birliklərin hüquq və azadlıqlarının müdafiəsi haqqında 9 iyul 1948-ci il tarixli Konvensiyada, Qadınların diskriminasiya edilməməsi haqqında 18 dekabr 1979-cu il tarixli Konvensiyada və s. aklarda bəyan edilmiş mühüm insan hüquq və azadlıqları konstitusiya qanunvericiliyi səviyyəsində ifadə edilmişdir.

Bu insan hüquq və azadlıqların məzmununa müraciət etmədən qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə onların sarsılmazlığı dəqiq təmin olunur, yalnız Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin III hissəsində göstərilən əsaslarla, habelə digər insanların hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədi ilə qanunla müəyyən edilmiş hallarda bəzi hüquqlar (Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində, 28-ci maddəsinin I hissəsində, 46-cı maddəsinin III hissəsində, 63-cü, 64-cü maddələrində və 71-ci maddəsinin VIII hissəsində nəzərdə tutulan hüquqlar istisna olmaqla) məhdudlaşdırıla bilər. Lakin Azərbaycan Respublikası Konstitusiyasının heç bir müddəası dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə və ya Azərbaycan Respublikası Konstitusiyasında və "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılmasına yönəlmiş fəaliyyət və ya hərəkətlər üçün hüquqi əsas yaradan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya ilə təmin edilməsi

məsələlərinə toxunarkən əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquqlarına aid olan müddəalara toxunmamaq olmaz. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə müvafiq olaraq onlar Azərbaycan ərazisində Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün hüquq və azadlıqlardan istifadə edirlər. Bu hüquq və azadlıqlar yalnız beynəlxalq hüquq və Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq məhdudlaşdırıla bilər. Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsi əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarını təmin etmək üçün beynəlxalq hüquq normalarına müvafiq olaraq Azərbaycan Respublikasında siyasi sığınacaq verilməsi, siyasi görüşlərinə görə, həmçinin Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməməsi kimi mühüm təminatlar nəzərdə tutur.

Göründüyü kimi, əsas insan hüquq və azadlıqlarının konstitusiya ilə tanınması məsələsi Azərbaycan Respublikasının Konstitusiyasında aydın və birmənalı həll edilmişdir. Bu, insan hüquq və azadlıqların müdafiəsinin təminatı üçün mühüm şərtdir.

"İnsan hüquq və azadlıqlarının təminatı" anlayışı ilə geniş mənada insan hüquq və azadlıqlarının tam həyata keçirilməsi və hərtərəfli qorunmasına, onların tam həyata keçirilməməsinin mümkün səbəbləri və maneələrin aradan qaldırılmasına yönəldilmiş obyektiv və subyektiv amillərin məcmusu əhatə edilir. Hərçənd bu amillər olduqca rəngarəngdir, ancaq hüquq və azadlıqların həyata keçirilməsi zamanı bunların düzgün yerinə yetirilməsi üçün şərt, vasitə, üsul və metodlar qismində çıxış edirlər. Təminatların əksəriyyəti bir şərt kimi münbit şərait yaradır və belə "mühitdə" vətəndaş özünün konstitusiya hüquq və azadlıqlarından daha səmərəli istifadə edə bilir.

Təminatlar hüquq və azadlıqların müdafiəsinin təmin edilməsi vasitə və üsulları şəklində hər bir vətəndaş tərəfindən deyil, cəmiyyət, dövlət, kollektiv tərəfindən yaradılır və göstərilən hüquq və azadlıqları həyata keçirmək üçün bunlardan istifadə edirlər. Ancaq bununla yanaşı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin elə şərt və vasitələri mövcuddur ki, bunların formalaşdırılması və istifadəsi bir çox hallarda onların özlərindən, iradə və arzularından asılı olur. Yəni təminat dedikdə elə şərt və vasitələr başa düşülür ki, onların vasitəsilə hamının və hər bir insanın hüquq və azadlıqlarının faktiki həyata keçirilməsi və hərtərəfli müdafiəsi təmin edilir.

Təminat obyekti kimi insan hüquq və azadlıqlarının qorunması və müdafiəsi ilə, vətəndaşların rifahı və maraqlarının ödənilməsi ilə bağlı olan ictimai münasibətlər çıxış edir. Təminatların məzmunu ölkədə baş verən ictimai-siyasi və digər proseslərdən asılıdır.

Fikrimizcə, müasir dövrdə insan hüquq və azadlıqların təminatlarının təsnif edilməsi olduqca zəruridir. Bu, konstitusiya təminatlarını daha yaxşı və dərindən izləməyə və açıqlamağa, onların üstünlükləri və qüsurlarını göstərməyə imkan verir. Belə ki, hüquq elmində ümumi və xüsusi təminatlar fərqləndirilir. Ümumi təminatlar qismində hüququ real edən iqtisadi, siyasi və digər şərtlərin

məcmusu başa düşülür. Bəzi alimlər belə təminatları "hüquqların maddi təminatı" adlandırırlar (4, 225).

Sosial-iqtisadi təminatlar hüquq və azadlıqlardan istifadəni təmin edən sosial mühit və maddi vəziyyəti nəzərdə tutur. Bu, sosial sabitlikdən, güclü iqtisadiyyatdan, geniş sosial-mədəni infrastrukturdan ibarət olan və cəmiyyətin sosial tələbatlarının bütün növlərinə xidmət göstərməyə imkan verən sistemdir (4, 278-279).

Azərbaycan Respublikası Konstitusiyasında dövlətin iqtisadi əsası haqqında xüsusi bölmə yoxdur, hər hansı növ mülkiyyət əsas mülkiyyət forması kimi müəyyənləşdirilməmişdir, həmçinin qeyri-dövlət mülkiyyət formaları üçün məhdudiyyətlər nəzərdə tutulmamışdır. Azərbaycan Respublikası Konstitusiyasının II hissəsinin 15-ci maddəsinə müvafiq olaraq "Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".

Beləliklə, müasir dövrdə ölkə iqtisadiyyatının inkişafının strateji istiqamətini müəyyənləşdirən əsas akt qismində 1995-ci il Konstitusiyasının rolu olduqca böyükdür. Eyni zamanda Əsas Qanun cəmiyyətin sosial tələbatlarının ödənilməsi üçün müvafiq infrastrukturların yaradılmasını da nəzərdə tutur. Sosial təminatlar humanizm, ədalət, bərabərlik prinsiplərinə söykənərək, bir şəxsin, həmçinin bütövlükdə cəmiyyətin potensial imkanlarının həyata keçirilməsini genişləndirir, şəxsiyyətin hüquqi statusunun məzmununu açıqlayır.

Siyasi təminatlar müvafiq olaraq dövlət siyasətinin əsas istiqamətlərini, insanın ləyaqətli həyatı və azad inkişafını təmin edən şəraitin yaradılmasını, siyasi strukturların dayanıqlığını, bunların cəmiyyətdə sabitliyin pozulmasını istisna edən vətəndaş həmrəyliyinə nail olmaq qabiliyyətini, vətəndaşların siyasi mədəniyyətinin yüksək səviyyəsini, dövlət aparatının bürokratizm, korrupsiya və s. mənfi hallarla mübarizəsini nəzərdə tutur.

Bəzi alimlər ideoloji (mənəvi) təminatları qeyd edirlər və bu növ təminat qismində özünü dövlətdən ayırmayan, keçid dövrünün bütün çətinliklərini başa düşən şəxsiyyətin dünyagörüşünü başa düşürlər (6, 39). Fikrimizcə, belə bir yanaşma o qədər də düzgün deyil. Hesab edirik ki, dövlətin rolunu nəzərə alınmadan (dövlət tərəfindən şəxsiyyətin formalaşması və harmonik inkişafı üçün müvafiq şəraitin (mühitin) yaradılması) şəxsiyyətin dünyagörüşünün özü-özlüyündə mövcudluğu qeyri-mümkündür. Beləliklə, ideoloji təminatlar dövlət və cəmiyyət tərəfindən elə bir şəraitin yaradılmasına yönələn fəaliyyətidir ki, bunların vasitəsilə şəxsin dünyagörüşü formalaşır, mənəvi və əxlaqi yönümünün seçimi baş verir (7, 205).

Fikrimizcə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi üçün təşkilati təminatlara dair məsələlərin cari qanunvericilikdə dəqiq tənzimlənməsi də xüsusi əhəmiyyət kəsb edir. Bunlar dövlət orqanları və ictimai təşkilatların fəaliyyətində ifadə olunur. Təşkilati tədbirlərin yerinə yetirilməsi insan hüquq və azadlıqlarının bütün təminat sisteminin təsirli olması üçün ümumi şərt, universal

zəmindir.

Xüsusi təminatlar qismində insanın hüquq və azadlıqlarının hüquq normaları ilə təsbit edilməsi, dövlətin bütün hüquq-mühafizə fəaliyyəti ilə, Avropa və dünya birliyi institutları tərəfindən təmin edilməsi və müdafiəsi başa düşülməlidir. Müvafiq konstitusiya normaları, ən əvvəl, elə münasibətlərə aid edilir ki, bunlar dövlətin insana məcburi təsir tədbirlərini tətbiq etmək, onu məhkəmə məsuliyyətinə cəlb etmək imkanı ilə, dövlət tərəfindən onun hüquq və azadlıqlarının xeyli məhdudlaşdırılması ilə bağlıdır. Azərbaycan Respublikasının Konstitusiyası mühakimə icraatının demokratik prinsiplərinə, məhkəmə qaydası ilə hüquqi məsuliyyətə cəlb edilmiş şəxslərə humanist münasibətə təminat verir. Hüquqi təminatlar insan hüquq və azadlıqlarına əməl edilməsi və müdafiəsini təmin edən bütün hüquqi vasitələri əhatə edir və göstərilən hüquq və azadlıqları açıqlayan və konkretləşdirən cari qanunvericilik normalarında ifadə olunur.

Hüquqi təminatlar digər təminat növlərindən xeyli fərqlənir. Belə ki, əgər iqtisadi, siyasi, sosial-əxlaqi təminatlar insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün zəmindirsə, hüquqi təminatlar şəxsin hüquq və azadlıqlarının birbaşa həyata keçirilməsinə və onların hüquq pozuntularından müdafiəsinə xidmət edir.

Bəzi müəlliflər hüquqi təminatları maddi və prosessual hüquq normalarının genişləndirilmiş sistemi kimi başa düşür və hesab edirlər ki, subyektiv hüquqların təmin edilməsi yalnız şəxsiyyətin real hüquqi statusunu təmin edən hüquqi təminatların, hüquq müəyyənləşdirici və hüquq bərpaedici xarakterli normaların köməyi ilə mümkündür. P.M.Rabinoviç hüquqi təminatların məzmununu daha geniş izah edir. O, hesab edir ki, bunlara hüquq normalarını, onlara əsaslanan hüquq tətbiqetmə fəaliyyətini və bu fəaliyyət zamanı qəbul edilən fərdi hüquqi aktları aid etmək lazımdır (8, 237).

S.S.Alekseyev və N.V.Vitruk hesab edirlər ki, hüquqi təminatlar sırasına hüquq pozuntularını aşkar etmək üçün hüquq normalarında təsbit edilmiş nəzarət və yoxlanma tədbirləri; hüquqi müdafiə, hüquq məsuliyyəti, hüquq pozuntularının qarşısını almaq üçün tədbirləri; hüquqi müdafiənin prosessual formaları (hüquq-mühafizə formaları daxil olmaqla); hüquq pozuntusunun profilaktikası daxil edilməlidir (9, 178).

Beləliklə, hüquqi təminatlar hüquqi və institusional komponentlərin vəhdətini təşkil edir ki, bu zaman hüquqi institutlar, dövlət təsisatlarının köməyinə arxalanır. Başqa sözlə, hüquqi təminatların mövcudluğu üçün onların özlərinin digər təminatlara ehtiyacı yaranır.

A.İ.Denisovun fikrincə, "hüquq və vəzifələrin təminatının bütün məcmusunu ümumi təminatlara (bütün hüquq və vəzifələr üçün) və hər bir hüquq və hər vəzifənin xüsusi təminatına bölmək olar" (10, 322).

Hər bir hüquq sahəsində insan hüquq və azadlıqlarının müdafiə mexanizminin bu və ya digər üsul və vasitələrə malik olduğu üçün hüquqi təminatların hüquq sisteminin ayrı-ayrı sahələri (konstitusiya-hüquqi, inzibati, inziba-

ti-prosessual, mülki-hüquqi, mülki-prosessual, cinayət-hüquqi, cinayət-prosessual və s.) üzrə təsnifatının aparılması məqsədəuyğundur. Lakin insan hüquq və azadlıqlarının hər hansı təsnifatı kimi, hüquq və azadlıqların hüquqi təminatlarının təsnifatı da şərtidir. Belə ki, aidiyyəti dövlət orqanlarının fəaliyyətini, zəruri normativ hüquqi aktların mövcudluğunu, dövlət orqanlarının hərəkəti və ya hərəkətsizliyindən məhkəməyə müraciət etmək imkanını mühüm hüquqi təminatlar kimi nəzərdən keçirmək olar.

Beləliklə, hüquqi təminatlar "hüquq normalarında əks olunmuş göstərişlərin həyata keçirilməsi üçün hüquqi mahiyyətli və müəyyən təşkilati vasitələr, bu normaların məqsədlərinə çatma üsulları, hüququn reallığa, hüquq münasibəti subyektlərinin faktik davranışına çevrilməsi imkanlarını tənzimləyən təşkilati hüquqi şərtlər" kimi izah edilə bilər (11, 19). Konstitusiya hüquq və azadlıqlarına qarşı təhlükə yarandığı halda təminatlar (müdafiə vasitələri) hərəkətə gəlir. Bu cür yanaşma təminatları hüquq və azadlıqların faktik həyata keçirilməsini və hüquqazidd təsir olduqda həmin hüquqların müdafiəsini təmin edən şərt və vasitələr (amillər) kimi anlamağa imkan verir.

Belə güman edilir ki, Azərbaycan Respublikası Konstitusiyasının bu və ya digər maddəsində istifadə edilən "dövlət təminat verir" ifadəsi müvafiq maddənin birinci hissəsində təsadüf edilən "hər bir kəsin hüququ var" ifadəsindən daha güclüdür. Bu bir daha nümayiş etdirir ki, Azərbaycan dövlətinin bütün fərdlərin hüquqlarını təmin etmək qabiliyyətinə malik olan sistemi vardır. Məsələn, əgər Azərbaycan Respublikası Konstitusiyasının I bölməsinin 26-cı maddəsində "Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır" deyilirsə, II bölmənin 26 maddəsində belə deyilir: "Dövlət hər kəsin hüquq və azadlıqlarını təmin edir". Bu konstruksiya Konstitusiyanın 29-cu və 32-ci maddələrində də öz əksini tapıb. Həmçinin Konstitusiyanın 35-ci maddəsinin (əmək hüququ) son hissəsinin də çox uğurlu olduğunu qeyd etmək lazımdır. Burada qanunverici deklarativ "dövlət təminat verir" ifadəsinin istifadəsindən imtina etmiş, daha real müddəa müəyyən etmişdir: "Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir".

Xüsusi konstitusiya təminatlarının böyük hissəsi cinayət-prosessual qanunvericilik sahəsinə aid olduğu üçün, hesab edirik ki, ümumi konstitusiya təminatlarının nəzəri aspektlərini geniş şəkildə nəzərdən keçirmək lazımdır. Belə ki, insanın konstitusiya hüquq və azadlıqlarının təsirliliyinin mühüm amillərindən biri onların pozulması hallarında dövlət tərəfindən sərt məcburi tədbirlərin qanunvericilik vasitəsilə təmin edilməsidir. Dövlət məcburiyyət tədbirlərinin, qanunvericilikdə əks edilmiş institusional-hüquqi təminatların təsirli olması dövlətin insanın əsas müdafiəçisi kimi fəaliyyətinin effektivlik səviyyəsini göstərir.

Vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi institutunun konstitusiya hüquq normaları ali qüvvəyə malik tənzimləmə normalarıdır, bir növ hüquq subyektlərinin ümumi davranış modelləridir. Buna görə də, göstərilən norma-

larda əksər hallarda ənənəvi üç element (hipoteza, dispozisiya, sanksiya) olmur və norma-dispozisiya daha tipik olur. Ancaq bu halda onların arasında norma-definisiyaları, norma-məqsədləri, norma-prinsipləri, səlahiyyətverici normaları, qadağanedici normaları, imperativ normaları fərqləndirmək olar. Hüquq subyektlərinin düzgün yönümü və onların adekvat davranışı üçün bu normaların təbiətini və növlərini aydınlaşdırmaq önəmlidir. Əks halda normaların məzmunu tam müəyyənləşdirilmir və onların potensialından lazımınca istifadə edilmir.

Normaların bu müxtəlifliyi vətəndaşların hüquq və azadlıqlarının institusional-hüquqi sistemini təşkil edən normaların təsnifatını ümumi şəkildə müəyyənləşdirir. Konstitusiyadakı norma-definisiyalar ya sonrakı qanunlarda tam əks olunur, ya da həmin qanunların normalarının yaradılmasına xidmət edir. Konstitusiyadakı norma-prinsiplər və norma-məqsədlər cari qanunlarda analoji normaların yaradılması üçün baza rolu oynayır.

Ümumtənzimləyici normaların (səlahiyyətverici və imperativ normalar daxil olmaqla) köməyindən əsas insan hüquq və azadlıqların müdafiəsi institutunda daha geniş istifadə edilir. Bu, dövlət orqanlarının qarşılıqlı münasibətləri, kütləvi hakimiyyətlərin fiziki və hüquqi şəxslərlə münasibətləri haqqında adiyyəti orqanların səlahiyyət normalarıdır. Bir çox hallarda bu normalar konstitusiya-hüquqi münasibətlərinin müvafiq subyektlərinin mükəlləfiyyətlərində də ifadə olunur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsinin 2-ci bəndində dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin, vətəndaşlar və onların birliklərinin Konstitusiyaya və Azərbaycan Respublikasının qanunlarına əməl etmələri haqqında müəyyən edilmiş müddəa polis orqanlarının fəaliyyətini tənzimləyən "Polis haqqında" Qanunun 10-cu maddəsində konkretləşdirilmişdir.

Əsas hüquq və azadlıqların müdafiəsinin institusional-hüquqi sisteminin formalaşmasında vətəndaşlara öz hüquq və azadlıqlarından sərbəst istifadə etmək imkanı verən dispozitiv normalar da cəlb edilir. Hüquq və azadlıqların müdafiəsi prosesində isə dövlət orqanlarına "icazə verilməyən hər şey qadağan olunmuşdur" prinsipi nəzərə alınmaqla hüquq tətbiqetmə fəaliyyətinin gedişatında yaradıcılıq göstərməyə icazə verilir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 3-cü fəslinin normaları "Vətəndaşlıq haqqında", "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında", "Kütləvi informasiya vasitələri haqqında" və s. qanunlarda əks olunmuşdur. Azərbaycan Respublikasının "Polis haqqında" Qanunu vətəndaşların hüquq və azadlıqlarının dövlət təminatı haqqında konstitusiya müddəasını inkişaf etdirərək vətəndaşların əsas hüquq və azadlıqlarının qorunması və müdafiəsi üçün polisə zəruri səlahiyyətlər verir.

Dispozitiv normalar bir çox dövlət orqanlarının fəaliyyətini tənzimləyir. Həm də bu normalar vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsi sahəsində bu orqanların təşkili və fəaliyyətini tənzimləyən müvafiq qanunlarda inkişaf edir.

Qadağanedici normaların əsas insan hüquq və azadlıqları institutlarına daxil edilməsi hüquqi və fiziki şəxslərin qanunauyğun davranışlarını saxlamaq

üçün onların preventiv hərəkətlərinə hesablanmışdır. Bunlar mümkün hüquqa zidd hərəkətlərin özünəməxsus indikatoru rolu oynayır.

Qoruyucu normaları vətəndaşların əsas hüquq və azadlıqları sahəsində hüquq pozuntularına görə məsuliyyət tədbirlərini tətbiq edən vasitəsi kimi çıxış edir. Belə ki, konstitusiya normaları ilə aşağıdakı məsuliyyət tədbirləri nəzərdə tutula bilər:

- hüquqi aktın ləğv edilməsi;
- vəzifəli şəxsin istefası;
- səlahiyyətlərin vaxtından əvvəl dayandırılması;
- xüsusi rejimin tətbiqi;
- orqanın yenidən təşkili;
- qeydiyyatın aparılmasından imtina;
- müvafiq fəaliyyətin qadağan edilməsi.

Əsas hüquq və azadlıqların pozulmasına görə məsuliyyət nəzərdə tutan qoruyucu normaların böyük qrupunu sahə qanunvericiliyində nəzərdə tutulmuş cinayət, inzibati, maddi məsuliyyət tədbirlərinə istinadlar təşkil edir. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində insanlıq əleyhinə, dövlətin konstitusiya quruluşunun əsasları əleyhinə və s. əməllərə görə cinayət-hüquqi məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur.

Beləliklə, vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsi institutunun formalaşdırılması və fəaliyyəti üçün mütləq konstitusiya hüquq normalarının daxili əlaqələri önəmlidir. Bu əlaqələrin zəifliyi hüquqi tənzimləmənin effektivliyinin azalmasına səbəb olur və son nəticədə əsas hüquq və azadlıqların təmin edilməsinin qənaətbəxş olmamasına gətirib çıxarır. Əksinə, qanun daxilində maddələr arasında, müxtəlif qanunların eynicinsli normaları arasında əlaqənin təmin edilməsi, institutun ayrı-ayrı hissələri arasında tənasübün gözlənilməsi vətəndaşların əsas hüquq və azadlıqlarının institusional-hüquqi müdafiə sisteminin yüksək potensialından istifadə etməyə imkan verir.

Konstitusiya hüquq və azadlıqlarının səmərəli müdafiəsi hüquq realizəsinin maddi, təşkilati və prosessual əsaslarının inkişaf etdirilməsini, institusional-hüquqi müdafiə sisteminin təkmilləşdirilməsini, dövlət orqanlarının hüquq-mühafizə funksiyasının gücləndilməsini tələb edir. Dövlət orqanlarının hüquq-mühafizə funksiyasının məzmunu aşağıdakı elementlərdən ibarətdir:

- hüquq pozuntularının profilaktikası;
- pozulmuş hüququn bərpası;
- hüquqazidd aktların ləğv edilməsi;
- vurulmuş maddi və mənəvi ziyanın ödənilməsi;
- hüquqazidd davranışa görə müvafiq məsuliyyət tədbirlərinin tətbiqi.

Hesab edirik ki, vətəndaşların əsas hüquq və vəzifələrinin çoxluğuna baxmayaraq, bunların həyata keçirilməsi zamanı bütün hüquq təminetmə sahələri üçün səciyyəvi olan ümumi əlamətləri göstərmək lazımdır. Müasir dünyanın sabit inkişafında insan hüquq və azadlıqlarının rolunun getdikcə artmasını nəzərə alaraq, insan hüquq və azadlıqlarının müdafiəsinin institusional mexa-

nizminə, dövlət orqanlarının insan hüquqlarının müdafiəsi üzrə fəaliyyətinə böyük diqqət yetirmək lazımdır.

Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edildikdən sonra yüzlərlə qanun, o cümlədən insan və vətəndaşların sosial-iqtisadi hüquq və azadlıqlarını təmin edən qanunlar qəbul edilmişdir. Bunların sırasında xüsusilə “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanunu, “Əmək pensiyaları haqqında” Qanunu, “Əhalinin sağlamlığının qorunması haqqında” Qanunu, “Uşaq hüquqları haqqında” Qanunu və s. normativ hüquqi aktları qeyd etmək olar. Başqa sözlə, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün zəruri şərait yaradılmışdır.

Şübhəsiz, dövlət orqanları və vəzifəli şəxslər yalnız qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri yerinə yetirə bilərlər. Həmçinin qeyd etmək lazımdır ki, müasir dövrdə Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli “Vətəndaşların müraciətləri haqqında” Qanunu ölkə vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir. Həmin Qanun vətəndaşların konstitusiya hüquq və azadlıqlarının pozulması ilə bağlı faktların dərhal, obyektiv və tam araşdırılmasına yardım edir.

**ƏDƏBİYYAT**


1. Лучин В.О. Конституционные институты // Современный конституционализм. По материалам советско-британского симпозиума. М.: ИГиП АН СССР, 1990, с. 28-37.
2. Рудинский Ф. М. Личность и социалистическая законность. Учеб. пособие. Волгоград: ВСШ МВД РФ, 1976, 159с.
3. Мордовец А.С. Социально-юридический механизм обеспечения прав человека и гражданина. Саратов: СВШ МВД РФ, 1996, 285с.
4. Баглай М.В., Габричидзе Б.Н. Конституционное право Российской Федерации. Учебник. М.: Инфра-М, 1996, 512с.
5. Чхиквадзе В.М. Гарантировано конституцией. Беседы о Конституции СССР. М.: Молодая гвардия, 1979, 206с.
6. Комаров С.А. Личность в политической системе Российского общества (политико-правовое исследование). Саранск: Мордовский ун-т, 1995, 208с.
7. Головистикова А.Н., Грудцына Л.Ю. Конституционное право России: Учебник / Под ред. Н.А.Михалевой. М.: Эксмо, 2006, 864с.
8. Рабинович П.М. Упрочение законности - закономерность социализма. Вопросы теории и методологии исследования Львов: Вища шк. Изд-во при Львов. ун-те, 1975, 260с.
9. Права личности в социалистическом обществе / Отв. ред. В.Н.Кудрявцев, М.С.Строгович. М.: Наука, 1981, 272с.
10. Денисов А.И. Советское государственное право: Учебник. М.: Юрид. изд-во МЮ СССР, 1947, 367с.
11. Боброва Н.А. Гарантии реализации государственно-правовых норм. Воронеж: Воронеж. ун-т, 1984, 163с.

## КОНСТИТУЦИОННЫЕ ГАРАНТИИ ЗАЩИТЫ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Н.Г.ХАЛИЛОВ**

**РЕЗЮМЕ**

В статье отмечается, что в современный период реальное обеспечение прав и свобод человека в Азербайджанской Республике происходит, в первую очередь, на базе основополагающих положений Конституции страны. Однако наличие демократической конституции в той или иной стране не является определяющим фактором гарантированности прав человека. В широком смысле понятием «гарантии прав и свобод человека» охватывается вся совокупность объективных и субъективных факторов, направленных на эффективную защиту и реализацию прав и свобод человека.

В статье особо подчеркивается, если экономические, политические, социально-нравственные гарантии служат предпосылкой реализации прав и свобод человека, то юридические гарантии направлены на непосредственное осуществление прав, свобод личности и их охрану от правонарушений.

**Ключевые слова:** конституция, закон, правовой, нормативный, регулирование, акт, законодательство

## THE CONSTITUTIONAL GUARANTEE OF PROTECTION OF RIGHTS AND FREEDOMS IN THE REPUBLIC OF AZERBAIJAN

**N.H.KHALILOV**

**SUMMARY**

The article notes that in modern times, the real protection of rights and freedoms in the Republic of Azerbaijan takes a primary place on the basis of the fundamental provisions of the Constitution. However, the existence of a democratic constitution in any country is not the determining factor in guaranteeing human rights. In a wide sense, the concept “guarantee of human rights and freedoms” is covered by the totality of objective and subjective factors for the effective protection and realization of human rights and freedoms.

The article emphasizes that if the economic, political, social and moral guarantees are a prerequisite for the implementation of human rights and freedoms, the legal guarantees aim at the direct exercise of the rights, freedoms and their protection from violation.

**Key words:** constitution, law, legal, normative, regulation, act, legislation